**“Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” Ali Məhkəmə Plenumunun 2011-ci il 28 oktyabr tarixli Qərarının tətbiqi ilə bağlı həyata keçirilmiş məhkəmələrin fəaliyyətinin monitorinqinin nəticələrinə dair**

**Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

**“ 19 ” dekabr 2022-ci il** **№ 5** **Bakı şəhəri**

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2020-ci il 18 sentyabr tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş “Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” Ali Məhkəmə Plenumunun 2011-ci il 28 oktyabr tarixli (2020-ci il fevralın 20-də edilmiş dəyişikliklərlə) Qərarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması üzrə Plana əsasən 01.10.2020 - 01.10.2021-ci il tarixləri arasında 1 il müddətinə Bakı şəhəri üzrə rayon məhkəmələri və Bakı Apellyasiya Məhkəməsində anket məlumatlarının toplanması üsulu ilə monitorinq həyata keçirilmişdir.

Monitorinqin nəticələrini müzakirə edib, “Məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanların müəyyən edildiyi sahədə məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması Qaydaları”nın 5.6-cı maddəsini rəhbər tutaraq Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Monitorinqin nəticələri təsdiq edilsin.

**2.** “Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” Ali Məhkəmə Plenumunun 2011-ci il 28 oktyabr tarixli Qərarına aşağıdakı redaksiyada əlavə və dəyişikliklər edilsin:

**2.1**. 1-ci bəndin ikinci abzası 2.3-cü bənd hesab edilsin;

**2.2.** 2-ci bəndin birinci cümləsi 2.1-ci bənd hesab edilsin;

**2.3**. 2-ci bəndin ikinci və üçüncü cümlələri 2.2-cü bənd hesab edilsin və məzmununda “bağçaya, yaxud məktəbə gedib-getməməsini” sözləri çıxarılaraq, “səhhətini” sözündən sonra “məktəbəqədər və ya ümumi təhsil rejimini” sözləri, “hansı valideynə daha çox bağlılığını” sözlərindən sonra isə “ünsiyyət hüququnun təmin edilməsini tələb edən valideynlə uşağın yaşayış yerləri arasındakı məsafənin uzaqlığını, nəqliyyat vasitələri ilə uşağın aparılması və gətirilməsi müddətlərini” sözləri əlavə edilsin;

**2.4**. aşağıdakı məzmunda 2.4-cü bənd əlavə edilsin:

“Məhkəmələr uşaqların öz valideynləri ilə ünsiyyətdə olma qaydasını müəyyən edərkən daha dolğun ünsiyyətin təmin edilməsi məqsədilə həftəlik görüş günləri ilə yanaşı, qeyri-iş günləri hesab edilən bayramlarda, uşaqların tətil günlərində, habelə ünsiyyət tələb edən valideynin və uşağın doğum günlərində, eləcə də ailəyə aid digər əlamətdar günlərdə ünsiyyət qaydasının müəyyən edilməsinə dair iddia tələblərinin təmin olunmasının mümkünlüyünü də nəzərə almalıdırlar.”

**2.5.** aşağıdakı məzmunda 2.5-cı bənd əlavə edilsin:

“Məhkəmələr nəzərə almalıdır ki, ünsiyyət qaydasının müəyyən edilməsi zamanı işin əhəmiyyətli halları (ünsiyyət tələb edən valideynin yaşayış yerinin şəraiti və uşağın yaşayış yerindən uzaqlığı, uşağın yaşı, sağlamlığı, təhsil rejimi və digər diqqətəlayiq hallar) nəzərə alınmaqla, gecə qalmaqla ünsiyyətin qaydasının müəyyən edilməsinə dair iddia tələblərinin təmin edilməsi imkanı da istisna edilmir.”

**2.6.** aşağıdakı məzmunda 2.6-ci bənd əlavə edilsin:

“Məhkəmələr uşaqların öz valideynləri ilə ünsiyyət forması kimi şəxsi görüşdən əlavə, mümkün olduğu hallarda digər ünsiyyət formalarının (yazışma, telefon danışıqları, video-əlaqə və texnologiyaların imkan verdiyi digər vasitələr) tətbiqini də nəzərdən keçirməlidirlər.”

**2.7.** aşağıdakı məzmunda 2.7-ci bənd əlavə edilsin:

“Məhkəmələrə izah edilsin ki, uşaqların öz valideynləri ilə ünsiyyətdə olma qaydasını müəyyən edərkən, həmin valideynlə uşaq arasında uzun müddət ərzində ünsiyyətin olmaması nəticəsində yaranan və buna görə də gələcəkdə qətnamənin icrasını çətinləşdirə biləcək dərəcədə bağlılığın zəiflədiyini, münasibətlərin soyuduğunu müəyyən etdiyi halda uşağın mənafeyi baxımından Mülki Prosessual Məcəllənin 220.6-cı maddəsinə uyğun olaraq qətnamənin nəticə hissəsində icranın mərhələli şəkildə həyata keçirilməsini ehtiva edən icra qaydası və müddətini göstərməlidirlər**.”**

**2.8.** 2-ci bəndin ikinci abzası 2.8-ci bənd hesab edilməklə, birinci və ikinci cümlələrin məzmununda “iddianın təmin tədbirinin” sözləri “müvəqqəti təminat tədbirinin” sözləri ilə əvəz edilsin;

**2.9.** 6-cı bənddən “öz valideynləri və digər” sözləri çıxarılsın, “valideyninin” sözü “qohumunun” sözü ilə əvəz edilsin.

**2.10.** 11-ci bənddə “himayədarlıq” sözü “himayə” sözü ilə əvəz edilsin və aşağıdakı məzmunda yeni cümlə əlavə edilsin:

“Nəzərə alınmalıdır ki, qəyyumluq və himayə orqanının rəyində təklif edilən ünsiyyət qaydası Mülki Prosessual Məcəllənin 88-ci maddəsinə əsasən məhkəmələr üçün məcburi olmayıb, iş üzrə toplanmış digər sübutlarla yanaşı yoxlanılmalı və qiymətləndirilməlidir.”

**2.11.** 4-cü bəndin birinci abzası 4.1, ikinci abzası 4.2, 3-cü abzası 4.3-cü bənd, 7-ci bəndin birinci abzası 7.1, ikinci abzası 7.2-ci bənd, 8-ci bəndin birinci abzası 8.1, ikinci abzası 8.2-ci bənd, 9-cu bəndin birinci abzası 9.1, ikinci abzası 9.2-ci bənd, 10-cu bəndin birinci abzası 10.1, ikinci abzası 10.2-ci bənd hesab edilsin.

**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin sədri** **Ramiz Rzayev**